**<u>Ot Kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı</u>**

**<u>2020-ci maliyyə ilinin 1-ci yarısı üçün nəzərdə tutulan 5 layihənin imzalanma mərasimi</u>**

**<u>19 noyabr 2020-ci il</u>** tarixində, saat 15:00-da Yaponiyanın Azərbaycan Respublikasındakı Fövqəladə Səfirinin iqamətgahında "Ot Kökləri və İnsan Təhlükəsizliyi" üzrə Qrant Yardımı Proqramı çərçivəsində "Sabirabad rayonunun Əlicanlı kəndində suvarma su sisteminin bərpası", "Zaqatala rayonunun Zəyəm kəndində içməli su təchizatının qurulması", "Ağcabədi rayonunun Şərəfxanlı kəndində yeni uşaq bağçasının tikintisi", "Qusar rayonunun Düztahir kəndində yeni tibb məntəqəsinin tikintisi", "Beyləqan rayonunu İmamverdilər kəndində yeni tibb məntəqəsinin tikintisi " layihələrinin imzalanma mərasimi həyata keçirilmişdir. Mərasimdə Yaponiyanın Azərbaycan Respublikasındakı Fövqəladə Səfiri cənab Vada Cüniçi və adıçəkilən layihələri həyata keçirəcək yerli qeyri-hökümət təşkilatlarının sədrləri öz nitqləri ilə çıxış etmişdir.

Mərasim zamanı cənab Səfir Vada, yardım proqramı çərçivəsində imzalanmış layihələrin nəzərdə tutlan hər bir bölgənin əhalisinin səhiyyə, təhsil, sosial rifah və iqtisadi inkişafına öz töhvəsini verəcəyinə ümid bəslədiyini bildirdi. Mərasimdə çıxış edən təşkilatların sədrləri sözügedən layihələrin heç bir problem olmadan icrasını arzuladıqlarını və bu yardıma görə Yaponiya Hökumətinə öz dərin minnətdarlığını ifadə etmişdir.

Sözü gedən qrant yardımı proqramı çərçivəsində ümmilikdə **306,768 ABŞ dolları** olmaqla :

1. Ümumi dəyəri **67,837 ABŞ dolları** məbləğində "Sabirabad rayonunun Əlicanlı kəndində suvarma su sisteminin bərpası "
2. Ümumi dəyəri **54,453 ABŞ dolları** məbləğində olan "Zaqatala rayonunun Zəyəm kəndində içməli su təchizatının qurulması "
3. Ümumi dəyəri **75,196 ABŞ dolları** olan "Ağcabədi rayonunun Şərəfxanlı kəndində yeni uşaq bağçasının tikintisi "
4. Ümumi dəyəri **54,980 ABŞ dolları** olan "Qusar rayonunun Düztahir kəndində yeni tibb məntəqəsinin tikintisi "
5. Ümumi dəyəri **54,302 ABŞ dolları** olan "Beyləqan rayonunu İmamverdilər kəndində yeni tibb məntəqəsinin tikintisi "

-layihələri həyata keçirilmişdir.

Bundan əlavə, Azərbaycanın müxtəlif bölgələrində həyata keçirilmiş Ot Kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardım layihələrinin ümumi sayı **260-ı**, ümumi məbləği isə **21 milyon ABŞ dollarını** ötür.






